# MÜHAFİZƏÇİLƏR ÜÇÜN
# TƏDRİS PROQRAMI

## MÜNDƏRİCAT

1. Ümumi müddəalar
2. Tədrisin məqsədi və gözlənilən nəticələr
3. Tədrisin təşkili və ümumi saat bölgüsü
4. Qiymətləndirmə və yekun attestasiya
5. Fənlər üzrə tədris proqramları
5.1. Hüquqi təlim
5.2. Taktika və xüsusi təlim
5.3. Xüsusi vasitələrdən istifadə qaydaları
5.4. Texniki hazırlıq
5.5. Psixoloji hazırlıq
5.6. İlk tibbi yardım
5.7. Xüsusi fiziki hazırlıq
6. Tədris materialları və metodiki təminat
7. Təhlükəsizlik tələbləri və etik davranış

## 1. Ümumi müddəalar

Bu Tədris Proqramı mühafizəçi vəzifəsini icra edən şəxslərin ilkin hazırlığı, təkmilləşdirilməsi və iş prosesində standart bilik-bacarıqlarının formalaşdırılması məqsədilə hazırlanmışdır. Proqram özəl mühafizə fəaliyyətinin təşkilində qanunçuluq, insan hüquq və azadlıqlarına hörmət, təhlükəsizlik, peşəkarlıq və etik davranış prinsiplərini əsas götürür.

Proqramın hüquqi əsası Azərbaycan Respublikasının Konstitusiyası, "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Qanun, digər normativ hüquqi aktlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdir.

Proqram müəssisə daxilində təlim mərkəzində və ya müvafiq qaydada akkreditasiya olunmuş/təsdiqlənmiş tədris müəssisəsində həyata keçirilə bilər.

## 2. Tədrisin məqsədi və gözlənilən nəticələr

### 2.1. Məqsəd

Mühafizəçilərin hüquqi biliklərinin, taktiki və texniki bacarıqlarının, psixoloji dayanıqlığının, ilkin tibbi yardım vərdişlərinin və fiziki hazırlığının müasir tələblərə uyğun formalaşdırılması.

### 2.2. Gözlənilən nəticələr

özəl mühafizə fəaliyyətini tənzimləyən əsas normativ aktları bilməsi və tətbiq etməsi;
buraxılış və obyektdaxili rejimlərin təşkili və icrasında düzgün hərəkət etməsi;
riskləri qiymətləndirmə, patrul və post xidməti zamanı taktiki qərar verməsi;
xüsusi vasitələrdən qanuni və təhlükəsiz istifadə etməsi;
video-müşahidə, siqnalizasiya və rabitə vasitələrindən səmərəli yararlanması;

konflikt və stress vəziyyətlərində peşəkar ünsiyyət və de-eskalasiya üsullarını tətbiq etməsi;
zərərçəkənə ilkin tibbi yardım göstərməsi və təxliyəni təşkil etməsi;
minimum fiziki normativləri yerinə yetirməsi və öz təhlükəsizliyini təmin etməsi.

**3. Tədrisin təşkili və ümumi saat bölgüsü**

Tədris proqramının tövsiyə olunan ümumi həcmi 120 saatdır. Müəssisənin obyekt xüsusiyyətlərindən, risk səviyyəsindən və iş qrafikindən asılı olaraq saat bölgüsü daxili əmr ilə dəyişdirilə bilər.

**3.1. Saat bölgüsü cədvəli (tövsiyə)**

| Fənn | Nəzəri (saat) | Praktiki (saat) | Cəmi | Qiymətləndirmə |
|---|---|---|---|---|
| 1. Hüquqi təlim | 16 | 4 | 20 | Test |
| 2. Taktika və xüsusi təlim | 10 | 20 | 30 | Praktiki |
| 3. Xüsusi vasitələrdən istifadə | 8 | 12 | 20 | Praktiki |
| 4. Texniki hazırlıq | 6 | 14 | 20 | Praktiki |
| 5. Psixoloji hazırlıq | 6 | 4 | 10 | Müşahidə |
| 6. İlk tibbi yardım | 6 | 14 | 20 | Praktiki |
| 7. Xüsusi fiziki hazırlıq | 2 | 16 | 18 | Normativ |
| 8. Yekun qiymətləndirmə | 0 | 2 | 2 | Komissiya |

Qeyd: Yekun qiymətləndirmə yazılı test (hüquqi biliklər) və praktiki mərhələlərdən ibarət ola bilər.

**4. Qiymətləndirmə və yekun attestasiya**

**4.1. Cari qiymətləndirmə**

Cari qiymətləndirmə mövzular üzrə qısa testlər, situasiya tapşırıqları, praktiki məşğələlərdə instruktor müşahidəsi və normativlərin icrası əsasında aparılır.

**4.2. Yekun qiymətləndirmə**

Yekun qiymətləndirmə aşağıdakılardan ibarət tövsiyə olunur:
- Hüquqi təlim üzrə yazılı test;
- Taktiki situasiya (post, buraxılış rejimi, patrul) üzrə praktiki tapşırıq;
- Xüsusi vasitələrdən təhlükəsiz istifadə üzrə praktiki tapşırıq;
- İlk tibbi yardım üzrə praktiki tapşırıq;
- Fiziki hazırlıq üzrə normativlərin icrası.

**4.3. Qiymətləndirmə meyarları**

Qanunvericiliyin düzgün tətbiqi və səlahiyyət hədlərinə riayət
Təhlükəsizlik qaydalarına əməl etmə (öz təhlükəsizliyi və üçüncü şəxslər)
Komanda işi, rabitə və raportlaşdırma intizamı

Ünsiyyət mədəniyyəti və konfliktin de-eskalasiyası
Praktiki bacarıqların düzgün və vaxtında icrası.

## 5. Fənlər üzrə tədris proqramları

### 5.1. Hüquqi təlim

**Məqsəd:**
Mühafizəçinin hüquq və vəzifələrini, səlahiyyət hədlərini, qadağaları, məsuliyyət növlərini və özəl mühafizə fəaliyyətinin hüquqi əsaslarını öyrətmək.

**Tövsiyə olunan saat bölgüsü:**
Nəzəri 16 saat, praktiki 4 saat (cəmi 20 saat)

**Mövzular:**
Özəl mühafizə fəaliyyətinin hüquqi tənzimlənməsi və prinsipləri
Mühafizəçiyə irəli sürülən tələblər, işə qəbul və tibbi müayinə
Mühafizəçinin hüquq və vəzifələri. Qadağalar
Cinayət qanunvericiliyinin əsasları (ümumi anlayışlar, məsuliyyət)
İnzibati qanunvericiliyin əsasları (xətalar, cərimələr, prosedur)
Mülki və əmək qanunvericiliyinin əsasları (müqavilə, əmək intizamı, maddi məsuliyyət)
Xüsusi vasitələrdən istifadə zamanı hüquqi məhdudiyyətlər və hesabatlılıq
**Tədris metodları:**
Mühazirə
Normativ aktların izahı
Case-study (situasiya tapşırıqları)
Qısa testlər
**Material və avadanlıq:**
Qanunvericilik toplusu (çıxarışlar)
Daxili qaydalar və təlimatlar
Raport/akt nümunələri
**Qiymətləndirmə:**
Yazılı test (minimum keçid balı müəssisənin daxili qaydası ilə müəyyən edilir).

### 5.2. Taktika və xüsusi təlim

**Məqsəd:**
Obyektin mühafizəsi, post və patrul xidməti, buraxılış rejimi, şübhəli halların aşkarlanması, hadisəyə reaksiya və ilkin tədbirlərin görülməsi üzrə praktiki bacarıqları formalaşdırmaq.

**Tövsiyə olunan saat bölgüsü:**
Nəzəri 10 saat, praktiki 20 saat (cəmi 30 saat)

**Mövzular:**
Obyektin risk analizi və mühafizə planı (ümumi yanaşma)
Post xidməti: növbə təhvil-təslimi, müşahidə, jurnal və raport
Patrul xidməti: marşrut, nəzarət nöqtələri, radio-əmrlər
Buraxılış rejimi: sənədlərin yoxlanması, nəqliyyat və yük nəzarəti

Şübhəli əşya/şəxs və hadisə yerinin mühafizəsi
Kütləvi narahatlıq və münaqişə zamanı ilkin taktiki davranış
Fövqəladə hallar: yanğın, təxliyə, obyektin bloklanması
**Tədris metodları:**
Məşq və drill
Rollar üzrə situasiya
Patrul/post ssenariləri
Komanda işi tapşırıqları
**Material və avadanlıq:**
Post pasportu və təlimat
NBM avadanlığı (maket)
Radio rabitə vasitələri
Jurnal nümunələri
**Qiymətləndirmə:**
Praktiki sınaq: situasiya üzrə düzgün qərar və prosedura uyğun hərəkət.

### 5.3. Xüsusi vasitələrdən istifadə qaydaları

**Məqsəd:**
Xüsusi vasitələrin tətbiqinin hüquqi əsaslarını, təhlükəsizlik qaydalarını və praktiki istifadə bacarıqlarını öyrətmək.

**Tövsiyə olunan saat bölgüsü:**
Nəzəri 8 saat, praktiki 12 saat (cəmi 20 saat)

**Mövzular:**
Xüsusi vasitələr: növlər, təyinat və saxlanma tələbləri
Tətbiq şərtləri: son zərurət, zəruri müdafiə, mütənasiblik
Xəbərdarlıq, de-eskalasiya və tətbiq ardıcıllığı
İstifadədən sonra hesabat: məlumatlandırma, akt/raport
Zərərçəkənə ilkin tibbi tədbirlər və risklərin azaldılması
Qadağan olunan halların izahı (azyaşlılar, kütləvi yerlər və s.)
**Tədris metodları:**
Mühazirə
Təhlükəsizlik brifinqi
Praktiki məşq (maket üzərində)
Video-analiz
**Material və avadanlıq:**
Xüsusi vasitə maketləri (müəssisədə mövcud olan)
Təhlükəsizlik qaydaları vərəqi
Hadisə aktı nümunələri
**Qiymətləndirmə:**
Praktiki sınaq və təhlükəsizlik qaydaları üzrə şifahi sorğu.

## 5.4. Texniki hazırlıq

**Məqsəd:**
Texniki mühafizə vasitələrinin (video-müşahidə, siqnalizasiya, giriş-çıxış sistemləri, rabitə) istismarı üzrə baza bilikləri formalaşdırmaq.

**Tövsiyə olunan saat bölgüsü:**
Nəzəri 6 saat, praktiki 14 saat (cəmi 20 saat)

**Mövzular:**
Video-müşahidə sistemləri: kameralar, arxiv, axtarış və hadisə çıxarışı
Siqnalizasiya və sensorlar: tipik siqnallar, yalnış siqnal, prosedur
Giriş-çıxış nəzarəti: kart sistemi, qapı nəzarəti, jurnal
Radio rabitə etikası: çağırış kodları, qısa mesaj standartları
Texniki nasazlıqlar zamanı ilkin tədbirlər və eskalasiya zənciri
**Tədris metodları:**
Demonstrasiya
Praktiki iş (avadanlıq üzərində)
Check-list ilə məşq
**Material və avadanlıq:**
CCTV/siqnalizasiya paneli (və ya trenajor)
Radio stansiyalar
Nasazlıq check-listi
**Qiymətləndirmə:**
Praktiki tapşırıq: hadisə çıxarışı və düzgün eskalasiya.

## 5.5. Psixoloji hazırlıq

**Məqsəd:**
Stressə davamlılıq, konfliktin idarə olunması, peşəkar ünsiyyət, müşahidə və davranış analizi bacarıqlarını inkişaf etdirmək.

**Tövsiyə olunan saat bölgüsü:**
Nəzəri 6 saat, praktiki 4 saat (cəmi 10 saat)

**Mövzular:**
Peşəkar ünsiyyət və etik davranış
Konfliktin de-eskalasiyası: verbal və non-verbal üsullar
Stress və emosional özünənəzarət
Şübhəli davranış indikatorları və risk siqnalları
Komanda daxilində kommunikasiya və məsuliyyət paylaşımı
**Tədris metodları:**
Müzakirə
Rol oyunları
Situasiya analizi
Məşq sonrası geribildirim

**Material və avadanlıq:**
Situasiya kartları
Qısa təlim videoları (daxili)
Davranış müşahidə vərəqi
**Qiymətləndirmə:**
İnstruktor müşahidəsi və situasiya üzrə şifahi qiymətləndirmə.

### 5.6. İlk tibbi yardım

**Məqsəd:**
Təcili vəziyyətlərdə həyat xilas edən ilkin tibbi yardım bacarıqlarını formalaşdırmaq.

**Tövsiyə olunan saat bölgüsü:**
Nəzəri 6 saat, praktiki 14 saat (cəmi 20 saat)

**Mövzular:**
Hadisə yerinin təhlükəsizliyi və ilkin baxış (ABC)
Qanaxmalar, sarğı və turniket tətbiqi
Sınıq, çıxıq və immobilizasiya
Şok, huşsuzluq, qıcolma və ilkin tədbirlər
Yanıqlar, zəhərlənmə, allergik reaksiyalar
Ürək-ağciyər reanimasiyası (ÜAR) və avtomatik defibrilyator (mövcuddursa)
Təxliyə və təcili yardımın çağırılması, raportlaşdırma
**Tədris metodları:**
Mühazirə
Maket üzərində praktika
Ssenari məşqləri
Qrup işi
**Material və avadanlıq:**
İlk yardım çantası
Reanimasiya manekeni (mövcuddursa)
Sarğı materialları
Praktiki check-list
**Qiymətləndirmə:**
Praktiki sınaq: qanaxmanın dayandırılması və ÜAR əsasları.

### 5.7. Xüsusi fiziki hazırlıq

**Məqsəd:**
Mühafizəçi üçün zəruri fiziki dayanıqlıq və çeviklik göstəricilərini təmin etmək, təhlükəsiz özünüqoruma vərdişləri qazandırmaq.

**Tövsiyə olunan saat bölgüsü:**
Nəzəri 2 saat, praktiki 16 saat (cəmi 18 saat)

**Mövzular:**
İsinmə və travma profilaktikası

Dözümlülük və güc məşqləri (iş rejiminə uyğun)
Əsas özünüqoruma elementləri (təhlükəsiz tutmalar və yayınma)
Komanda ilə fiziki məşqlər
Normativlərə hazırlıq və sınaq

**Tədris metodları:**

İdman zalı məşqləri
Normativ sınaqları
Instruktor nəzarəti ilə drill

**Material və avadanlıq:**

İdman avadanlığı
Tibb çantası
Təhlükəsizlik təlimatı

**Qiymətləndirmə:**

Normativlərin icrası və təhlükəsizlik tələblərinə riayət.

**6. Tədris materialları və metodiki təminat**

Normativ hüquqi aktlardan çıxarışlar və daxili təlimatlar
Post pasportu, növbə jurnalı, hadisə aktı, raport formaları
CCTV və siqnalizasiya üzrə istifadə təlimatları və check-listlər
İlk yardım üzrə vizual materiallar və təlim manekenləri (mövcud olduqda)
Təhlükəsizlik qaydaları və etik davranış kodeksi

**7. Təhlükəsizlik tələbləri və etik davranış**

Təlimlər zamanı iştirakçıların təhlükəsizliyi prioritetdir. Praktiki məşğələlərdə instruktora tabeçilik, avadanlıqdan yalnız təlimat üzrə istifadə, qadağan olunmuş hərəkətlərə yol verilməməsi təmin olunmalıdır. Mühafizəçi xidmətdə neytrallıq, nəzakət, konfidensiallıq və insan ləyaqətinə hörmət prinsiplərinə əməl etməlidir.

**8. Əlavələr**

**8.1. Nümunə yekun test sualları (Hüquqi təlim)**

Özəl mühafizə fəaliyyətinin əsas prinsiplərini sadalayın.
Mühafizəçinin hüquqları və vəzifələri hansı hallarda tətbiq olunur?
Fiziki qüvvə və ya xüsusi vasitə tətbiq edildikdə hansı məlumatlar kimə verilməlidir?
Buraxılış rejimi nədir və əsas sənədlər hansılardır?
Video və audioyazı aparılması hansı şərtlərlə mümkündür?

**8.2. Praktiki qiymətləndirmə vərəqi (nümunə)**

| Meyar | Qiymət (0-5) | Qeyd | İnstruktor imzası |
|---|---|---|---|
| Təhlükəsizlik qaydalarına əməl | | | |
| Rabitə və raport | | | |
| Taktiki qərar | | | |
| Ünsiyyət və etik davranış | | | |
| İlk yardımın icrası | | | |